NAZİM TOFİQOĞLU

# BİR TƏHQİRİN CƏZASI

QANUN NƏŞRİYYATI

***“Bir təhqirin cəzası”*** *əsəri insan taleyinin bir anlıq emosional qərarlarla necə faciəvi istiqamətə yönəldiyini təsvir edən sosial-psixoloji hekayədir. Əsərdə Cavanşirin sevgi, ailə, xəyanət və qürur fonunda yaşadığı sarsıntılar, bir təhqirin doğurduğu cinayət və bunun uzunmüddətli mənəvi nəticələri ön plana çəkilir. Müəllif cəmiyyət, ailə tərbiyəsi, asılılıqlar və yanlış seçimlərin insan həyatında yaratdığı dağıdıcı təsiri real və sərt dillə oxucuya təqdim edir. Əsər oxucunu məsuliyyətin, səbir və düzgün qərar verməyin əhəmiyyəti barədə düşünməyə vadar edir.*

## Birinci fəsil

Təhqirə yol verildiyi üçün Cavanşir cinayət törətmişdi. Və ona on il iş verdilər. O bu hadisəni törədəndə içkili halda olmuşdu. Onsuz da Cavanşirin dələduz olmasına baxmayaraq, etdiyi cinayət həyat yoldaşının təhqiri üstündə olmuşdu. Və günə-gün o, həbsxanada yatdı. O, həbsxanaya düşəndə iyirmi bir yaşı vardı. Bu yaş çox erkən sayılırdı evlilik üçün. Çünki bu gənc oğlan həyatının eniş və yoxuşunu dərindən dərk etməli və sonra özü bilər. Cavanşir otuz bir yaşında həbsxanadan çıxdıqdan sonra başqa-başqa sifətləri gördükdə iş tapmaqda çətinlik çəkirdi. Lakin iş tapdı, özü də yaxşı iş sayılırdı Cavanşir üçün. Artıq həyat yoldaşı İlahə ondan boşanmışdı.

Onun cinayət törətməsinə səbəb bu idi: Cavanşir ofisiant işləyirdi B restoranında. O, rayondan gəlib şəhərdə kirayədə qalırdı. Təzəcə evlənmişdi İlahə xanımla. Cavanşir seçimində yanılmışdı. Çünki əsas insanın daxili aləmi gözəl olsun, zahiri gözəlliyə aldanmasa lap yaxşı olar. Cavanşir İlahənin zahiri gözəlliyinə aldanıb evlənmişdi. Onda hissləri

daxilində püskürən vulkan kimi çox enerjili idi. O da bu hisslərə tabe olub ilk anda vulkan bombaları kimi onu bir neçə kilometr məsafəyə tullamışdı. Əsas məğz məhz vulkan bombası idi. Onun öhdəsindən daxili təzyiq daha yaxşı gəldi. Cavanşirin enerjisi tükənəndə müəyyən müddətdən sonra fəallaşırdı. Çünki cavan və enerjili idi.

Evlənməmişdən öncə Cavanşirin anası Elza xanım və atası Telman bəy oğlunun bu sevgisinə qarşı idilər. Ona deyirdilər: "Cavanşir, gəl, daşı tök ətəyindən, bu qız əxlaqlı deyil, sən onun gözəlliyinə inanma!" Lakin atanın, ananın dedikləri qalırdı bir kənarda. Cavanşir gənc və dəliqanlı olduğuna görə İlahəyə vurulmuşdu. O bilmirdi ki, başına sonradan nə gələcək. İlahə xanım Cavanşirgilin məhəlləsindən bir küçə arxada olurdu. Onlar N adlı rayonda yaşayırdılar. İlahə xanım əvvəllər Rəmzi adlı bir oğlana aşiq olmuşdu. Rəmzi yaraşıqlı oğlan idi. Nə olsun, deyildiyi kimi, yaraşığın heç bir əhəmiyyəti yoxdur. Çünki Rəmzinin iyirmi beş yaşı vardı və o da arvadbazın biri, əxlaqsızın yekəsi idi. İlahə xanımın anası yox idi, rəhmətə getmişdi. Bu, İlahə iyirmi üç yaşında olanda baş vermişdi. Qalmışdı atası Şahin kişinin öhdəsinə. Şahin kişi səhər evdən çıxır, evə də gec qayıdırdı. Ancaq işlədiyi pulun yarısını verirdi içkiyə. Bunun, əlbəttə, İlahəyə də təsiri yan keçmirdi. Lap bu İlahənin ürəyindən idi. Çünki Rəmzi ilə

əlaqə qurub telefonda yazışırdılar. Rəmzi İlahənin nömrəsini, qızın başını yeyərək, almışdı. Onlar bir müddət danışdılar.

Rəmzinin İlahə ilə görüşü İlahədə əminlik yaratmışdı ki, onu sevir, lakin fərqində deyildi ki, Rəmzi onunla sadəcə cinsi münasibətdə olmaq haqqında düşünürdü. Rəmzinin bu niyyəti baş tutur. (İndi guya belələri yoxdur?) Bundan sonra onlar bir-iki dəfə belə anlar yaşayırlar. Sonra Rəmzi bəhanə gətirib deyir ki, “Mənim istədiyim qız var”. Lakin heç bir istədiyi filan yox idi. Rəmzi İlahəyə deyir ki, “Sən mənə artıq lazım deyilsən”. Bu isə İlahəyə olduqca pis təsir bağışlayır. Qızın bu başısoyuqluğu həm özü, həm də Şahin kişi ilə əlaqəli idi. Çünki hər gün evə içkili gəlir, qızıyla beş-on dəqiqə söhbət edib zarafatlaşdıqdan sonra yatırdı, vəssalam. Bu da sonda İlahənin taleyinə təsir etdi.

İlahənin çıxış yolu qalırdı bircə ərə getməyə. Kim olur-olsun, onun üçün əhəmiyyət kəsb etmirdi. Axır ki, kişi olsun. Bu da əlbəttə, Cavanşir. Cavanşir onunla çox keçmədən tanış olur. Onlar telefonda gecələr yazışır və birtəhər gecəni yola verirdilər. Şəhvət hissləri və şeytani hisslər Cavanşirin başını yeyir və İlahəni özünə adaxlı edir. Lakin Cavanşirin valideynləri razı deyildilər. Atası Telman kişi bilirdi ki, Şahin əyyaşın biridir və hələ Cavanşir də bundan xəbərdar idi. Lakin şəhvət və sevgi hissləri o qədər

baş qaldırmışdı ki, nə Elza xanımı, nə də Telman kişini gözləri görürdü.

Telmanın etirazına və Elzanın dediklərinə heç bir əhəmiyyət verməyən Cavanşir qızı qaçırır. Rəsmi nikah kəsilir – hər iki tərəfin razılığı əsasında. Onların evi üçotaqlı mənzil idi. Bir otaqda Cavanşir, digər otaqda isə Elza xanımla Telman bəy qalırdı. Axır ki, arxa küçədən bir əxlaqsızı gətirib salır otağına və özünə arvad eləyir. Qonşular bundan xəbər tutur, bəziləri sevinir, bəziləri isə lənət oxuyurdular İlahəyə. İlahə və Cavanşir bir müddət rayonda qaldıqdan sonra maddi məvacib üçün yollanırlar Bakı şəhərinə. Bakı şəhərinə gəldikdən sonra cütlük ev kirayələyir. Bu ev "Maklerlər" parkının aşağı hissəsində yerləşirdi.

Cavanşir iş axtardı və nəhayət, yaxınlıqdakı restoranların birində – B restoranında günəmuzd işə başladı. B restoranı onun üçün demək olar ki, uğurlu sayıla bilərdi. Çünki həm yaxın, həm də sərfəli idi; günəmuzd otuz manat. Hər gün iş olmasa da, bir gündən-bir və yaxud iki-üç gündən-bir işi olurdu. O, ofisiant işləyərək həmçinin əlavə "çayevoy" tuturdu. Beləliklə, desək hər şey qaydasında gedirdi. İşdən evə gələn Cavanşiri şeytani xislətli İlahə gülərək qarşılayır, olub-bitəni hal-əhval tuturdu. Elə gün olurdu ki, onlar istirahətə vaxt ayırıb dənizkənarı bulvara gedirdilər. Bulvarda gəzdikdən sonra İçə-

rişəhər və oradan da Tarqovıya yollanırdılar. Bu zaman Cavanşirin cibi tamamən boşalırdı. Çünki İlahə nə qədər mehriban davransa da, nəfsinə hakim ola bilmirdi. Bu isə sanki Cavanşirə daha maraq verirdi. Çünki səhv addımı özü atmışdı. Ata-anasının sözünü dinləməyən övlad və yaxud da valideyn tərbiyəsi görməyən övladın sonunda aqibəti çıxılmaz olur. Bu əsnadan yola çıxaraq demək olar ki, Cavanşir yoldaşını arxayın salmaq üçün hər əmələ hazır idi. Lakin bu mələk donuna girmiş ifritə o qədər dar düşüncəli idi ki, Cavanşirin bütün varını-yoxunu əlindən çıxarırdı. Amma hələ ki ortada bir şey yox idi. Bunun belə olması bir yana, hələ ki narahatçılıq da yox idi.

***

İki ay olardı şəhərə köçməkləri, artıq İlahəyə kreditlə təzə telefon da almışdı. Bunu İlahə özü təkidlə tələb etmişdi. Onun nəfsi "it nəfsi" idi. Bu onun əxlaqsızlığının birinci səbəbi olaraq telefonla başlamağı qərara aldı. Cavanşir isə tərin-suyun içində əlləşir-vuruşur, ancaq İlahəni razı salmağa çalışırdı ki, çalışırdı. Evlə əlaqə bu iki ayda heç qurmadı Cavanşir. Ata, ana heç yadına düşmədi də. Hərdən "Şir südü" alıb içir və evə dönürdü işdən sonra. Beləliklə, tədricən İlahə də "Şir südü"ndən xoşlanmağa başladı. Onda bildi ki, atası Şahin kişi necə gözəl bilir ağzının dadını. Səhəri bir təhər ayağa duran Cavanşir

dünən gecə nə etdiyini anlamırdı. Buna heç ehtiyac da yox idi. İlahə yuxudan saat on-on birdə ayılır, səhər yeməyini də İlahə üçün Cavanşir hazırlayırdı. İlahə yuxudan ayılanda Cavanşir çörək dalınca qaçırdı.

Bir qədər pul əldə etmişdilər. Ona görə də həftədə iki-üç dəfə belə hallar olurdu. Artıq Cavanşir özünə deyirdi: "Şir südü nə yaman şeydir". Və bununla da həyatın dadını çıxarmış sayırdı özünü. O elə sanırdı ki, İlahə ondan ötrü mələkdir və bu mələk da Vinçinin Cakondasıdır. Bu Mona Liza sanki min cür fitnə-fəsadla dolu idi. Bunu qız təbii, qanunauyğun şəkildə yerinə yetirmək qərarına gəlmişdi. Bu iki ayın içində hər şey tədricən uçuruma doğru yön alırdı. İlahə Cavanşirin sanki qulağına fısıldayır və istədiyini edirdi. Bu isə Cavanşiri dəridən-qabıqdan çıxmağa vadar edirdi. Cavanşir boş günlərində yaxınlıqdakı başqa restoranda ofisiant işləməyə başlamışdı. Nə də olsa, pis əməlli insanlar olsa da, yaxşı – əməlisaleh insanlar da vardır. O, işdə gah mürgüləyir, gah da diksinib işləri sahmana salmağa çalışırdı. Bu da çox keçmədi və işdən özü ayrıldı.

Artıq İlahə özü sərbəst, icazəsiz evdən çıxır və Cavanşirin evdə olmadığından istifadə edib mağazaları dolaşırdı. Sonda evə qayıdıb belə qərara gəlir ki, o da işləsin. Cavanşir gecə evə gələndə ona dedi:

– Cavanşir, həyatım, bəlkə mən də işləyim?